İSSN-0207-4710

# GÖYƏRÇİN

11

2020



# BAŞLANĞIC VƏ SON

*(Əfqan nağılı)*

Bir şeyx kiçik çayın sahilində əyləşib xəyala dalmışdı. O, dünyanın əvvəli, axırı haqqında düşünürdü. Elə bu vaxt o, başının üstündə uçan bir quzğun gördü. Quş caynağındakı qarışqanı yerə buraxdı. Bunu görən şeyx yaxına gəlib qarışqaya baxdı. Qarışqa onun çox xoşuna gəldi. Onu götürüb evlərinə apardı. Ancaq öz-özünə düşündü ki, mənim evdə qarışqa saxladığımı bilən insanlar təəccüblənəcək, haqqımda pis-pis sözlər deyəcəklər. Ona görə şeyx dua eləyib Allaha yalvardı ki, bu qarışqanı bir balaca qızcığaza döndərsin. Onun duası qəbul olundu. Qarışqa bir qıza çevrildi. Qız nə qız, aya deyirdi sən çıxma, mən çıxım, günə deyirdi sən çıxma, mən çıxım! Bu qızı kim görürdüsə, heyranlığını gizlədə bilmir, öz dərd-qəmini unudurdu.

Bir dəfə şeyx qızı yanına çağırıb dedi:



-Ay qızım, sənin bir dənə də olsun qohumun, doğman yoxdu. Maşallah, böyümüsən, ailə quran vaxtındı. Ancaq mənim səni məcbur eləmək fikrim yoxdu. Ürəyin kimi istəyirsə, onunla da evlən.

Qız dedi:

-Mənə ailə qurmaq üçün çox böyük və güclü, gözəllikdə tayı-bərabəri olmayan bir adaxlı tap.

Şeyx dedi:

-Mənə elə gəlir ki, bu dünyada günəş kimi böyük, günəş kimi güclü və gözəl bir varlıq yoxdu.

-Mən razıyam. Günəşi çağır gəlsin.

-Şeyx var gücü ilə qışqırdı ki, səsi göydəki günəşə çatsın:



-Ey, Günəş! Bu qız ailə qurmaq üçün qüdrətli bir ər axtarır. Biz belə qərara gəlmişik ki, bu, ancaq sən ola bilərsən. Nə deyirsən, təklifimizə razısanmı?

-Mən özümdən də güclü bir varlıq tanıyıram. Yaxşı olar ki, sən bu qızı ona ver!

-Kimdi o səndən güclü olan?

-Buluddu, - Günəş cavab verdi. Ən kiçik bulud belə mənim qarşımı kəsməyə qadirdi.

Şeyx buludun yanına gedib, ona hər şeyi danışdı. Bulud dedi:

-Əgər gücdən söhbət gedirsə, Külək məndən güclüdür. O, məni qabağına qatıb hara istəsə apara bilir.

Şeyx Küləyin yanına gedib öz fikrini bildirdi. Külək ona belə cavab verdi:

-Mənim haram güclüdü? Əgər mən güclü və qüvvətli olsaydım, əsəndə dağ mənim qarşımı kəsə bilməzdi.

Şeyx Dağın yanına getdi. İstəyini söyləyəndə Dağ dedi:

-Əgər dünyada güclü və qüdrətli bir varlıq axtarırsansa, qarışqadan güclü birini tapa bilməzsən. Mən onların əlindən zara gəlmişəm. Sinəmi dəlmədeşik eləyib orada özlərinə yuva qururlar. Nə qədər çalışsam da, onlardan yaxamı qurtara bilmirəm.

Şeyx qızın yanına qayıdarkən qarşısına bir qarışqa çıxdı. Ona bütün başına gələnləri danışdı. Qarışqa müştəri gözü ilə qıza baxıb dedi:

-Doğrusu, mən çoxdandı ailə qurmaq haqqında düşünürəm. Ancaq mənə belə bir qız yox, öz nəslimdən, kökümdən olan bir qarışqa lazımdı.

-Bu, o qədər də çətin məsələ deyil. - Qız tələsik cavab verdi. İndi şeyx dua oxuyub məni qarışqaya döndərə bilər.

Şeyx dua oxuyan kimi qız qarışqaya döndü və o biri qarışqaya qoşulub getdi. Şeyx onların arxasınca baxa-baxa düşündü:

-Bütün canlılar əvvəl-axır öz əslinə, kökünə qayıdır. İnsan isə torpağa...

*Tərcümə edəni: R.Y.Əliyev*